Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Heydər Əliyev

Qəzet 1921-ci ildən çıxır

ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 208 (20.862)

6 noyabr 2013-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

Milli dəyərlərimizin hamisi

Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində növbəti açıq dərs keçilib. "Milli dəyərlərimizin hamisi" mövzusuna həsr olunmuş budəfəki açıq dərsin iştirakçıları Naxçıvan şəhərindəki 8 nömrəli tam orta məktəbin şagirdləri olub.

Məktəbin tarix müəllimi Gülnaz Hüseynova bildirib ki, qədim dövlətçilik tarixinə malik Azərbaycan xalqı hər zaman milli dəyərlərinə sadiq qalaraq bu dəyərləri əsrlərlə yaşatmış və inkişaf etdirmişdir. Milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki milli dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır.

Milli dəyərlərimizin qorunması və inkişafı ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Milli dəyərlərimizə, soykökümüzə qayıdışın, milli hisslərimizin oyanışının xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu sahəni diqqət mərkəzində saxlayan ümummilli liderimiz Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə xalqımızın milli oyanışının əsası qoyulmuşdur. Ümummilli liderimizin siyasi fəaliyyətinin 1969-1982-ci illərini öyrəndikcə görürük ki, ulu öndər dilimizə, tariximizə, mədəniyyətimizə, musiqimizə, ədəbiyyatımıza məhz dövlətçilik mənafeləri baxımından yanaşmışdır. Ümumiyyətlə, xalqımızın böyük oğlu Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə məqsəd və məramı Azərbaycanı iqtisadi cəhətdən inkişaf etdirməklə xalqın milli dirçəlişi, milli şüurunun oyanışı ilə müstəqil dövlətimizi yaratmaq olmuşdur.

Qeyd olunmuşdur ki, ulu öndərimiz sovet dövründə olduğu kimi, Azərbaycanın müstəqilliyi illərində də milli dəyərlərimizə sahib çıxmışdır. Xalqımızın milli dəyərlərinin, adət-ənənələrinin təbliği, tarixi-memarlıq abidələrinin bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi dahi şəxsiyyətin milli dəyərlərə sədaqətinin göstəricisidir. Milli bayramımız olan Novruz bayramının dövlət səviyyəsində qeyd edilməsi də milli dəyərlərimizin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər sırasındadır. Xalqımızın böyük oğlu Heydər Əliyevin qətiyyəti, cəsarəti nəticəsində Novruz bayramı hələ Sovetlər Birliyi dövründə ölkəmizdə ümumxalq bayramı kimi qeyd olunmuşdur. Ötən əsrin 70-80-ci illərində Novruz bayramının təntənəli şəkildə keçirilməsi milli dəyərlərin qorunması, milli yaddaşın bərpası baxımından çox mühüm əhəmiyyət daşıyırdı.

Ümummilli lider Heydər Əliyev milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən yüksək formasını milli dövlətçilikdə görürdü. Bu gün milli dəyərlərimiz elliklə, bütün xalq tərəfindən, dövlətin öz himayəsi altında qorunur və daha da inkişaf etdirilir. Dövlətçiliklə milliliyin birləşməsi bütün xalqların ən böyük arzusu və idealı olmuşdur. Bu gün biz müstəqil dövlətimizdə milli birlik dövrümüzü yaşayırıq ki, bunun da əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Sonra şagirdlər muzeydəki eksponatlarla tanış olublar.

Avropa Şurası Yerli və Regional Hakimiyyətlər Konqresində "Avropada xüsusi statusa malik region və ərazilər" adlı hesabat dinlənilib

Oktyabrın 30-da Strasburqda keçirilən Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresinin sessiyasının Regionlar Palatasının plenar iclasında italiyalı məruzəçi Bruno Marzianonun "Avropada xüsusi statusa malik region və ərazilər" adlı hesabatı dinlənilib.

İnformasiya agentliklərinin məlumatına görə, hesabatın Avropada müxtəlif muxtariyyət formalarından bəhs edilən hissəsində Azərbaycanda Naxçıvan Muxtar Respublikasının muxtariyyət statusu da xüsusi qeyd olunaraq belə bir modelin çox faydalı olduğu vurğulanır. Bundan başqa, sənəddə ümumi olaraq bu kimi muxtariyyətlərin xüsusi regional statusa malik olması, separatçı tendensiyalara qarşı səmərəli bir tarazlığın yarada biləcəyi də bildirilib.

Hesabatda Avropa Şurasının 2009-cu ildə regional demokratiya ilə bağlı qəbul etdiyi çərçivə sənədi, 2002-ci ildə regional özünü idarəetməyə dair qəbul edilmiş Helsinki Bəyannaməsi və Avropa Şurası Nazirlər Komitəsinin Avropada münaqişələrin sülh və siyasi danışıqlar yolu ilə həlli axtarışlarındakı səyləri nəzərə alaraq Nazirlər Komitəsinə aşağıdakı çağırışla müraciət olunur: Üzv dövlətlərə regional və ərazi məsələlərinin, habelə "dondurulmuş münaqişələr"in danışıqlar yolu ilə həll edilməsi istiqamətində realist yanaşma kimi xüsusi status modelindən daha çox istifadə olunmasını təklif etmək və Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresini, onun Parlament Assambleyasını və Venesiya Komissiyasını bu işə cəlb etmək. Eyni zamanda belə bir xüsusi regional statusun üzv ölkələrin üzləşdiyi ərazi məsələlərinin həll olunmasında nə dərəcədə yardımçı ola biləcəyinin öyrənilməsi də tövsiyə olunur.

Hesabat ətrafında gedən müzakirələrdə iştirak edən Azərbaycan nümayəndə heyətinin rəhbəri Anar İbrahimov çıxışında Azərbaycanın üzləşdiyi Dağlıq Qarabağ münaqişəsi və ermənilər tərəfindən işğal edilmiş ərazilərdən danışıb: "Mən şəxsən özüm də xüsusi statuslu belə bir region və ya ərazini – Azərbaycanın daxilində muxtar dövlət statusuna malik olan Naxçıvan Muxtar Respublikasını təmsil edirəm. Yeri gəlmişkən, hesabatın müəllifi də bu xüsusiyyəti qeyd edib. Bu muxtariyyətin 90 yaşı var. Və təcrübə də göstərir ki, məhz belə bir status regionun sabit inkişafına imkan və təminat verir, problemləri neytrallaşdırır. Müəllif hesabatında unikal bir yanaşmanı əks etdirib. Misal üçün, xüsusi muxtariyyət statusunun verilməsinin separatçı tendensiyalara qarşı tarazlıq yarada biləcəyinin mümkünlüyü. Və yaxud digər əhəmiyyətli məsələ kimi üzv dövlətlərə regional və ərazi məsələlərinin, habelə "dondurulmuş münaqişələr"in danışıqlar yolu ilə həll edilməsi istiqamətində realist yanaşma kimi xüsusi status modelindən istifadə olunmasının təklif edilməsini də qeyd edə bilərik. Təəssüf ki, bizdə – Azərbaycanda belə bir "dondurulmuş" münaqişə – Dağlıq Qarabağ münaqişəsi mövcuddur. Ölkənin beşdə bir hissəsi işğal olunub və bu münaqişənin sülh yolu ilə həlli istiqamətində uzun illərdir, danışıqlar aparılır. Bununla bağlı Azərbaycan Naxçıvan və yaxud İtaliyanın Cənubi Tirol və digər uğurlu modellərə uyğun, geniş muxtariyyəti nəzərdə tutan xüsusi status təklif edib. Məhz elə xüsusi muxtariyyət statusu iki əsas təməl prinsipi nəzərə alır. Burada ərazi bütövlüyü prinsipi öz müqəddəratını təyinetmə hüququnu tamamlayır. Hesab edirəm ki, biz konqresimizin imkanlarından istifadə etməklə bu məsələdə səylərimizi davam etdirməliyik. Bu baxımdan, fikrimcə, qanunverici səlahiyyətlərə malik regionlara dair işçi qrupunun fəaliyyətinin bərpası olduqca vacib bir məsələdir. Və yaxud da xüsusi statuslu ərazi və regionlara dair yeni bir qrup yarada bilərik ki, burada da rahat bir şəkildə müzakirələr apara və bu kimi strukturlar arasında təcrübə mübadiləsini təmin edə biləkk".

Şahbuz rayonunun quruculuq xəritəsi hərtərəfli dövlət qayğısı hesabına ildən-ilə genişlənir. Öncə onu qeyd edək ki, cari ilin ötən dövrü ərzində rayonun Kükü və Ağbulaq kəndlərində yeni sosial obyektlər istifadəyə verilib.

Şahbuz rayonunun quruculuq xəritəsində yeni ünvanlar

Quruculuq tədbirləri hazırda sürətlə davam etdirilir. Rayon mərkəzinin ən gözəl ünvanlarından biri olan Heydər Əliyev prospektində Yeni Azərbaycan Partiyası Şahbuz Rayon Təşkilatı üçün zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət bina inşa olunur. Tikinti işləri Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinə həvalə edilib. İnşaatçılara hərtərəfli iş şəraiti yaradılıb. Bu şəraitdən səmərəli istifadə olunmasının nəticəsidir ki, obyektdə tikinti işləri əsasən başa çatdırılıb.

Rayonun bir neçə ucqar kənd yaşayış məntəqəsi də tikinti meydançasına çevrilib. Məlumat üçün bildirək ki, bölgənin kiçik yaşayış məntəqələrindən biri olan Ayrınc kəndi ilk dövlət qayğısını neçə illər əvvəl görüb. Burada yeni məktəb binası istifadəyə verilib. Məktəb binasından bir qədər yuxarıda, yolun sağında ikimərtəbəli kənd mərkəzi, solunda isə xidmət mərkəzi inşa olunur. Bu quruculuq tədbirini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin kollektivi həyata keçirir.

Qızıl Qışlaq və Güney Qışlaq kəndləri də yaxın vaxtlarda kompleks quruculuq tədbirləri hesabına müasir yaşayış məntəqəsinə çevriləcək. Hər iki kənddə müxtəliftəyinatlı quruculuq tədbirlərini Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Şahbuz Rayon İdarəsinin inşaatçıları həyata keçirirlər. Məlumat üçün bildirək ki, bir neçə il əvvəl Qızıl Qışlaqda mədəniyyət evi üçün yeni bina inşa olunub. Yaxın kəndlərin də istifadə etdiyi baytarlıq məntəqəsi istifadəyə verilib.

Qızıl Qışlaqdakı binalardan biri kənd tam orta məktəbi üçün nəzərdə tutulub. 110 şagird yerlik məktəb binası zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarətdir. Burada tikinti işləri əsasən başa çatdırılıb, çardaq hissə qurulub. Hazırda son tamamlama işləri həyata keçirilir.

Məktəb binasının yaxınlığında inşa olunan kənd mərkəzi iki mərtəbədən ibarətdir. Burada kəndin müxtəlif qurumlarının fəaliyyəti üçün şərait yaradılacaq.

Ucqar dağ kəndinin sakinlərinə daha bir dövlət qayğısı isə bu yaşayış məntəqəsində xidmət mərkəzinin tikintisidir. Burada da tikinti işləri başa çatdırılıb.

Quruculuq tədbirləri Güney Qışlaq kəndini də əhatə edir. Bu yaşayış məntəqəsində yaxın günlərdə iki mərtəbədən ibarət kənd mərkəzi və birmərtəbəli xidmət mərkəzi istifadəyə veriləcək.

"Naxçıvanqaz" İstehsalat Birliyi qış mövsümünə hazırdır

Uzun illər mavi yanacağa həsrət qalan muxtar respublikamızda bu problem bir neçə ildir ki, öz həllini tapıb. Həyata keçirilən məqsədyönlü tədbirlər hesabına diyarımızın ən ucqar dağ və sərhəd bölgələrinə belə, qaz xətti çəkilib. Məlumat üçün bildirək ki, bu gün muxtar respublikamızda 82 min 465 abonent, o cümlədən 80 min 919 əhali abonenti və 1546 qeyri-əhali abonenti təbii qazdan istifadə edir. "Naxçıvanqaz" İstehsalat Birliyi və həmin qurumun rayonlardakı təşkilatları tərəfindən qaz təsərrüfatının etibarlılığını və səmərəliliyini artırmaq, qaz istehlakçılarını fasiləsiz və təhlükəsiz təbii qazla təmin etmək məqsədilə müxtəlif tədbirlərin həyata keçirilməsini diqqət mərkəzində saxlayır. Qarşıdan qış mövsümü gəlir. Bəs qış mövsümünə hazırlıq işləri necə gedir? "Naxçıvanqaz" İstehsalat Birliyinin rəis müavini Ramin İsmayılov bildirdi ki, payız-qış mövsümündə mavi yanacaqdan səmərəli istifadə etmək, fasilələrə yol verməmək, əhalinin hər hansı problemlə üzləşməməsi üçün tədbirlər planı tərtib olunmuş, reallaşdırılması nəzərdə tutulan tədbirlər, demək olar ki, əsasən başa çatdırılmış, cari işlər davam etdirilir. Belə ki, muxtar respublikanın qaz təsərrüfatında istismarda olan magistral, daşıyıcı və paylayıcı qaz kəmərlərinə, kranlara, siyirtmələrə, qaztənzimləyici şkaflara texniki baxış keçirilərək aşkar edilmiş nöqsanlar aradan qaldırılmışdır. Muxtar respublikadakı Avtomat Qaz Paylayıcı stansiyalarda (Culfa, Güznüt, Modul İstilik Elektrik Stansiyası və Sement Zavod) bütün qoruyucu klapanlar təmizlənmiş, təzyiqtənzimləyicilərin və qoruyucu klapanların istifadəyə yararlığı yoxlanılmışdır. Bir neçə qaztənzimləyici və kran dəyişdirilərək yeniləri ilə əvəz olunmuşdur. İstismarda olan qaz sayğaclarına baxış keçirilmiş, cari təmirə ehtiyacı olan sayğaclar təmir edilmiş, 1285 ədəd sayğac yenisi ilə əvəz olunmuşdur. Təhlükəli ərazilərdən keçən qaz xətlərinin təhlükəsizliyinin mühəndis-texniki qaydalara uyğun olaraq təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlər hazırda davam etdirilir.

Naxçıvan şəhərində yeraltı qaz kəməri və avadanlıqları üzərində yerləşmiş 131 quyuda təmir-bərpa işləri aparılmaqdadır. 1978-ci ildə istifadəyə verilmiş ortatəzyiqli qaz kəməri uzun müddət istifadə edildiyi üçün istismara yararsız hala düşdüyündən həmin qaz kəməri dəyişdirilmiş, Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəməri oktyabrın 8-də istifadəyə verilmişdir.

Uzunluğu 81 kilometr olan Naxçıvan-Sədərək yüksəktəzyiqli qazboru xətti müasir tələblərə tam cavab verir. Xəttin üzərində 4 katod qoruma sistemi, 6 qazpaylayıcı stansiya quraşdırılmışdır ki, bununla da belə stansiyaların sayı 11-ə çatdırılmışdır. Yeni quruculuq tədbiri qazdan səmərəli və dayanıqlı şəkildə istifadəyə imkan vermiş, təbii qazdan itkisiz və səmərəli istifadə isə muxtar respublikanın qaz təsərrüfatının maddi-texniki bazasının gücləndirilməsinə şərait yaratmışdır. 75 atmosfer təzyiqdə qaz xəttində 1 milyon 500 min kubmetr təbii qaz ehtiyatı yaratmaq mümkündür. Bu da hər hansı qəza halı baş verdikdə abonentlərin 8 gün müddətində təbii qazla tam təmin olunması deməkdir. Şahbuz rayonuna isə 27 kilometr uzunluğunda ortatəzyiqli qaz xətti çəkilmişdir.

Payız-qış mövsümünü uğurla sona çatdırmaq, baş verə biləcək hər hansı bir hadisənin qarşısını almaq üçün kifayət qədər mal-material ehtiyatı fondu yaradıldığını diqqətə çatdıran rəis müavini onu da bildirdi ki, rayonlarda da payız-qış mövsümü ilə əlaqədar nəzərdə tutulmuş tədbirlərin icrası sürətləndirilir, əhali arasında maarifləndirici tədbirlərin keçirilməsinə ciddi önəm verilir, qaz təsərrüfatında çalışanların peşə təcrübəsinin yüksəldilməsi, işə məsuliyyət hissinin artırılması diqqət mərkəzində saxlanılır.

Onu da qeyd edək ki, mövsüm ərzində qazın təzyiqini nizamlamaq məqsədilə ölçü qovşaqlarında, magistral və daşıyıcı qaz kəmərlərində payız-qış mövsümü ilə əlaqədar texnoloji rejim tətbiq ediləcək.

Xəbərlər şöbəsi

Müasir Naxçıvan

Culfa: Dinamik inkişaf davam edir

Gözəlliyin onundan doqquzunun dondan ibarət olduğunu bu gün kiməsə sübut etməyə ehtiyac yoxdur. Əsas olan odur ki, gözəl geyim insanı daha yaxşı, daha yaraşıqlı göstərir və onu digərlərindən fərqləndirir. Hətta bir az dərinə varsaq, onun nüfuzuna da müsbət təsir göstərir.

Şəhərlər, rayonlar, kəndlər də insanlar kimidir. Bir bölgənin gözəlliyi onun rahat yolları, abad və işıqlı küçələri, gözoxşayan tikililəri, bir sözlə, insanoğlunun yaratdıqları ilə ölçülür. Görülən və görüləcək işlərin kompleks şəkildə aparılması, kəndlə şəhər arasındakı fərqin azaldılması isə bu gözəlliyin "paylanılması" baxımından ədaləti ortaya qoyur. Çünki gözəllik bütöv olanda göz oxşayır... Bu yaxınlarda xalqımız bu gözəlliklərin, inkişafın yaradılması, qorunması və davam etdirilməsi üçün böyük öndərimizin ümummilli ideyalarına sadiqliyini bir daha sübut etdi. Heydər Əliyev siyasətini dəstəklədi, növbəti prezident seçkilərində də bu siyasətə səs verdi.

Muxtar respublikamızın hər bir bölgəsi özünəməxsus zənginlikləri ilə seçilir. Haqqında bəhs edəcəyimiz Culfa rayonu da istər tarixi-mədəni, istərsə də strateji baxımdan regionun mühüm əhəmiyyət daşıyan ərazilərindən biridir. Heydər Əliyev ideyalarının muxtar respublikamızda uğurla həyata keçirilməsi bu rayonun da simasını büsbütün dəyişmiş, insanların qurub-yaratmaq əzmini yüksəltmişdir.

Digər rayon mərkəzlərində olduğu kimi, burada da ümummilli lider Heydər Əliyevin adını daşıyan prospekt Culfa şəhərinin ən gözəl ünvanıdır. Prospekt boyu hökm sürən səliqə-sahman, görülmüş abadlıq işləri göz oxşayır. Məlumat üçün bildirək ki, rayonun əksər idarə, müəssisə və təşkilatları bu ünvanda yerləşir. Həmin təşkilatlarda çalışan işçilər üçün hərtərəfli şərait yaradılmışdır. Şəhər mərkəzindəki digər küçələrdə də son illərin quruculuq ərməğanları, salınmış rahat yollar, parklar, yaşayış binaları, bazar, ticarət mərkəzi və sair ümumi şəhər ansamblı yaradaraq qədim Culfa şəhərinə gözəllik bəxş etmişdir.

Bir az əvvəl qeyd etdiyimiz kimi, muxtar respublikada həyata keçirilən tədbirlərin hamısı kompleks xarakter daşıyır. Görülən işlər təkcə rayon mərkəzini deyil, ən ucqar dağ kəndlərini belə əhatə edir. Əhalisi 45 min nəfər olan Culfa rayonunun 24 kəndindən 13-də kənd mərkəzləri tikilib istifadəyə verilmiş, Əlincədə isə kənd mərkəzinin inşası davam etdirilir. Aparılan quruculuq tədbirləri sırasında Culfa şəhərindəki 16 nömrəli beşmərtəbəli binanın, Şurud kəndində 110 şagird yerlik, Ərəfsə kəndində isə 306 şagird yerlik məktəb binalarının əsaslı təmiri, şəhərin girəcəyində Dövlət Bayrağı Meydanı Kompleksinin tikintisi də vardır.

Yol infrastrukturunun yeniləşdirilməsinin nəticəsidir ki, indi rayonun ən ucqar dağ kəndlərinə belə, gediş-gəliş çox rahatdır. Bu il Culfa şəhəri də daxil olmaqla rayonun daxili avtomobil yollarında 3438 ton asfalt-betondan istifadə edilməklə təmir işləri aparılmışdır.

Müasir dövrdə keyfiyyətli rabitə xidmətinin təminatı əhalinin rahat yaşayışını təmin edən vasitələr sırasında yer alır. Buna görə də yaşayış yerlərində elektron ATS-lərin quraşdırılması, sürətli internetin təşkili işləri uğurla aparılır.

Aparılan quruculuq tədbirləri sırasında əhalinin içməli su ilə təminatı da mühüm əhəmiyyət daşıyır. Qeyd edək ki, hələ Sovetlər Birliyinin tərkibində olduğumuz dövrdə Culfa şəhərinin içməli su ilə təminatının ödənilməsində hər zaman problemlər yaşanmışdır. Cari ildə şəhərin su təchizatının yaxşılaşdırılması məqsədilə "Dərəlik" adlanan ərazidə müxtəlif diametrli plastik borulardan istifadə edilməklə 2400 metr yeni kaptajın tikintisi, 400 millimetrlik şüşəlifli borulardan istifadə olunmaqla 10,2 kilometr uzunluğunda içməli su xəttinin çəkilişi başa çatdırılmışdır. Culfa şəhərindəki həcmi 5 min kubmetr olan 2 su anbarının tikintisi isə davam etdirilir.

Culfa rayonu kənd təsərrüfatı rayonudur. Hələ uzaq keçmişdən burada əhali müxtəlif təsərrüfat sahələri ilə məşğul olmuşdur. Müasir dövrdə kənd təsərrüfatının sürətli inkişafı üçün dövlət lazımi tədbirlər həyata keçirir. Belə ki, təsərrüfatın müxtəlif sahələri ilə məşğul olan insanlara güzəştli kreditlərin verilməsi sahibkarları daha da ruhlandırır. Məlumat üçün bildirək ki, 2013-cü ilin yanvar-sentyabr aylarında kənd təsərrüfatı məhsulları istehsalçılarından 66 nəfər sahibkara 86,5 min manat kredit verilmişdir.

Muxtar respublikamızın digər rayonlarında olduğu kimi, Culfa rayonunda da taxılçılığın inkişaf etdirilməsi diqqət mərkəzində saxlanılır. Cari il üçün 5083 hektar taxıl sahələrinin 4045 hektarını buğda, 1038 hektarını arpa əkini təşkil etmişdir. Hektarın məhsuldarlığı 26 sentner olmuşdur. Bundan əlavə, 484 hektar kartof sahəsindən 5198,7 ton, 594 hektar tərəvəz sahəsindən 8363,5 ton, 138 hektar bostan sahəsindən isə 2322,5 ton məhsul toplanmışdır. Rayonda payızlıq taxıl əkinlərinə də vaxtında başlanılmış, indiyədək 2187 hektar ərazi şumlanmış, 1078 hektarda buğda, 167 hektarda isə arpa əkini aparılmışdır.

2013-cü ilin yanvar-sentyabr aylarında 13,5 hektar ərazidə 3000 ədəd meyvə, 3400 ədəd isə meşə ağacları əkilmişdir. "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"na uyğun olaraq, bu il meyvə bağlarının 5 hektarı Gülüstan kəndində, 4 hektarı isə Culfa düzü sahəsində salınmışdır. Meyvəçiliklə məşğul olan 2 nəfərə 52 min, Əbrəqunus kəndində meyvə-tərəvəzin qəbulu və qurudulması istehsalının təşkili üçün 1 nəfər sahibkara 34 min, tingçilik təsərrüfatının yaradılması üçün isə 15 min manat məbləğində kreditlər verilmişdir. Bu il rayonda 3091 ton meyvə, 1765 ton üzüm tədarük olunmuşdur. İstehsal edilmiş məhsullar istər rayon mərkəzində, istərsə də paytaxt Naxçıvan şəhərində hər həftə təşkil edilən kənd təsərrüfatı məhsullarının satışı yarmarkalarına çıxarılaraq alıcılara təqdim olunur.

Bu gün muxtar respublikamızda təhsilin inkişaf etdirilməsi, müasirləşdirilməsi yeni mərhələyə qədəm qoymuşdur. Ən ucqar kəndlərdə belə, yeni təhsil müəssisələri tikilir, onların maddi-texniki bazası gücləndirilir. Culfa rayonunda da təhsilə göstərilən dövlət qayğısı sayəsində indiyədək 20 məktəb binası tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilmişdir. Müasir tələblərə cavab verən təhsil ocaqlarının yaradılması, onların yeni avadanlıqlarla təmin edilməsi gənc nəslin hərtərəfli biliyə, yüksək mədəniyyətə, mütərəqqi dünyagörüşə malik şəxsiyyətlər kimi yetişməsinə şərait yaradır. Məlumat üçün deyək ki, 2012-2013-cü tədris ilində məktəbi bitirən 497 məzundan 356 nəfəri ali məktəblərə qəbul üçün sənəd vermiş, 187 nəfər ali məktəblərə, 59 nəfər isə orta ixtisas məktəblərinə qəbul olunmuşlar. Bu da ərizə verənlərin 52,5 faizini təşkil edir. Tələbə adını qazanan abituriyentlərdən 27 nəfər 500-700 arası bal toplamışdır. Maraqlı faktlardan biri də odur ki, rayonun ucqar dağ kəndlərindən Şurud kəndində məktəbdən məzun olan 5 şagirddən 5-i də ali məktəblərə imtahan verərək tələbə adına layiq görülmüşdür. Qeyd olunan tədris ilində rayon məktəblilərindən 30 nəfəri Heydər Əliyev adına Hərbi Liseyə daxil olmuşdur. Eyni zamanda rayonun ümumtəhsil məktəbləri üzrə 1 nəfər məzun Sərhəd Qoşunları Akademiyasına, 2 nəfər Polis Akademiyasına, 3 nəfər isə Heydər Əliyev adına Ali Hərbi Məktəbə qəbul olmuşdur.

Təbii ki, əldə edilən nəticələrdə yüksək dövlət qayğısı ilə bərabər, müəllimlərin də rolu danılmazdır. Elə buna görədir ki, müəllimlərin əməyi yüksək qiymətləndirilərək 2012-2013-cü tədris ilində bir nəfər "Azərbaycan Respublikasının əməkdar müəllimi", bir nəfər isə "Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi" fəxri adlarına layiq görülmüşlər. "Ən yaxşı müəllim" müsabiqəsinin qalibi adını isə yeni istifadəyə verilmiş Kırna kənd tam orta məktəbinin ibtidai sinif müəllimi Dilrubə Məmmədzadə qazanmışdır. Bir sözlə, təhsildə qazanılmış qənaətbəxş nəticələri intellektual gələcəyə hesablanmış hədəflərə müasir gəncliyin uğurlu addımları kimi də dəyərləndirmək olar.

Yuxarıda qeyd etdiyimiz uğurları rayonun səhiyyə və mədəniyyət müəssisələri haqqında da demək olar. Bu sahələrlə bağlı növbəti yazılarımızda bəhs edəcəyik.

Bəli, gözəllik fəlsəfəsi, qurub-yaratmaq eşqi yalnız qəlbində Vətən sevgisini daşıyanlar üçün müqəddəs duyğuya çevrilir. Maddi və mənəvi tərəflərindən asılı olmayaraq, bu gözəlliyi duymaq, onunla nəfəs almaq hələ uzun illər bu diyarın insanları üçün ilham mənbəyi olacaq. Bu ilham mənbəyi isə ulu öndər Heydər Əliyevin ideyalarıdır.

✍ **Səbuhi HƏSƏNOV**

Sədərəkdə içməli su və kanalizasiya xətlərinin çəkilişi sürətlə aparılır

Regionların sosial-iqtisadi inkişafına dair ikinci dövlət proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunmuş konfransdakı çıxışında "bu, çox böyük sosialyönümlü, böyük vəsait tələb edən layihədir" deyən Prezident İlham Əliyev bildirmişdir ki, ölkəmiz üçün bunun əhəmiyyəti çox böyükdür. Çünki bütün dövrlərdə Azərbaycanda, Bakıda və digər bölgələrdə içməli su problemi çox kəskin dayanmışdır. Bölgələrdə, ümumiyyətlə, kanalizasiya xətləri yox idi. Bakının da kanalizasiya sistemi köhnəlmişdir. Bu sahədə böyük quruculuq işləri aparılır və biz yenə də maksimum səviyyədə hədəf seçmişik ki, bu sahədə infrastruktur tamamilə yeniləşsin. İndi həm Bakıda, həm də bütün bölgələrdə içməli su və kanalizasiya layihələri icra edilir... Bütün müvafiq qurumlar öz vəzifə borclarını yerinə yetirirlər. Bu layihələr keyfiyyətlə və vaxtında yerinə yetirilməlidir.

Sədərək rayonunda həyata keçirilən yenidənqurma, abadlıq-quruculuq işləri sırasında içməli su və kanalizasiya sistemlərinin yeniləşdirilməsi layihəsinin icrası da uğurla davam etdirilir.

Bu günlərdə tikinti işlərinin gedişi ilə maraqlandıq. Tikintinin baş mühəndisi Mehmet Firat görülən işlər barədə məlumat verdi. Öyrəndik ki, rayon ərazisində hər birinin tutumu 12 min 500 kubmetr olan 2 su anbarı tikiləcək. Anbarlara 10 min kubmetr su yığılacaq. "Aşağı mənbə" və "yuxarıda supaylayıcı" adlanan həmin anbarların birində artıq təməl işləri, sütunların, beton divarların qaldırılması başa çatdırılmış, digərində isə dəmir-beton işləri və sütunların qaldırılmasına başlanılmışdır.

Rayondaxili kanalizasiya şəbəkəsinin uzunluğu 135, su şəbəkəsinin uzunluğu 115 kilometr olacaq. İndiyədək 122 kilometr kanalizasiya, 45 kilometr su xətlərinin çəkilişi başa çatdırılmışdır.

Layihə üzərində işləyərkən rayonun kanalizasiya xətti nəzəri olaraq 2 yerə – Sədərək kəndi ərazisindən keçən magistral yolun alt və üst hissələrinə bölünmüşdür. Beləliklə, əvvəlcə yolun alt, yəni Heydərabad qəsəbəsi ərazisinin su və kanalizasiya xətti çəkilmişdir. Hazırda isə su və kanalizasiya xətlərinin çəkilişi üst hissədə – rayonun "Qırmızı körpü", "Qaraağac yolu" adlanan ərazilərində, Sədərək-Qaraağac kəndləri ərazisində davam etdirilir. Hər yerdə su xətlərinin və kanalizasiya sisteminin keyfiyyətli çəkilişinə xüsusi diqqət yetirilir.

Baş mühəndis onu da bildirdi ki, aşağıdakı anbarı su ilə doldurmaq üçün hər biri 84 metr dərinliyində 15 subartezian quyusu qazılmışdır. Həmin quyuların suyu xüsusi laboratoriyalarda yoxlanılmış, analizdən keçirilmişdir. Bu 15 quyudan hər 5-i ayrıca transformatora qoşulacaq. Hazırda transformator şəbəkəsinin quraşdırılmasına hazırlıq görülür. Qeyd edək ki, hər quyu saniyədə anbara 8 litr su vuracaq. Çirkab suların təmizlənməsi üçün isə iki qurğu inşa ediləcəkdir.

2014-cü ilin sonunda başa çatdırılması nəzərdə tutulan layihə çərçivəsində bütün işlər tamamlanandan sonra rayonda ən azı 50 il su təchizatına və kanalizasiya xəttinə ehtiyac duyulmayacaq. Çəkilən su və kanalizasiya xətlərinin hamısı plastik borularla inşa edilir. Mütəxəssislər çəkilən boruların 100 il ərzində istismara yararlı olacağını proqnozlaşdırırlar.

Layihəyə əsasən, rayonda 3200 ədəd ev birləşməsi qoyulacaq və o qədər də su sayğacı quraşdırılacaqdır. Yaxın vaxtlarda bu işə də start veriləcəkdir.

Rayonda olarkən sədərəklilərlə də görüşüb söhbət etdik. Teymur Quliyev, Yusif Qasımov, Həsən Zamanov və digərləri görülən abadlıq-quruculuq işlərini, həmçinin içməli su və kanalizasiya xətlərinin çəkilişini dövlətin sərhəd bölgəsi Sədərəyə olan qayğısının təzahürü kimi qiymətləndirdilər.

✍ **Cəfər ƏLİYEV**

Oktyabr ayında zərərçəkən vətəndaşlara 15 min manatdan artıq sığorta haqqı ödənilib

Bu barədə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyindən məlumat verilib. Ödənişlər "İcbari sığortalar haqqında" Qanunun müddəalarına əsasən aparılıb. Avtomobil nəqliyyatı sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə zərər çəkmiş üçüncü şəxslərin əmlakına və həyatına dəymiş zərərin məbləğinin ödənilməsi məqsədilə 5 vətəndaşa sığorta ödənişi həyata keçirilib.

Naxçıvan şəhər sakini Məhəmməd Dövlətovun vərəsəsinə 5 min manat sığorta məbləği ödənilib. Naxçıvan şəhər sakini Müseyib İsmayılova "VAZ-21074" markalı maşınına dəymiş zərərə görə 1540 manat, Naxçıvan şəhər sakini Əkbər Heydərova "Hundai Accent" markalı maşınına dəymiş zərərə görə 2750 manat, Bakı şəhər sakini Cavid Qafarova "Hundai Elantra" markalı maşınına dəymiş zərərə görə 3771 manat, Naxçıvan şəhər sakini Şahin Abdullayevə "VAZ-2107" markalı maşınına dəymiş zərərə görə 1981 manat ödənilib.

Xəbərlər şöbəsi

Yurduna, torpağına bağlı insanların Vətən sevgisinin təntənəsinin qarşısında söz acizdir

Xəbər verdiyimiz kimi, 31 oktyabr-1 noyabr tarixlərində Bakı şəhərində keçirilmiş III Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarından bir qrupu noyabrın 2-də və 3-də Naxçıvan Muxtar Respublikasında səfərdə olub. Qonaqlardan bir neçəsi ilə görüşüb həmsöhbət olduq, təəssüratlarını öyrəndik.

Paolo KASAQRANDA (İtaliya-Azərbaycan Assosiasiyasının prezidenti):

– Ölkəniz sürətli və hərtərəfli inkişaf yolundadır. İtaliya-Azərbaycan Assosiasiyasının prezidenti kimi Bakıda keçirilən III beynəlxalq forum mənim üçün çox maraqlı oldu. Ölkələrimiz arasında mədəni əlaqələr getdikcə artır, inkişaf edir. Romanın məşhur Kapitoli Muzeyində həyata keçirilən təmir işlərinə Heydər Əliyev Fondunun dəstəyi məhz bu əlaqələrin göstəricisidir. Naxçıvanla bağlı onu deyə bilərəm ki, burada heç zaman olmamışam. Bura çox qədim və tarixi bir yerdir. Bununla yanaşı, şəhərinizdə gördüyüm müasir binalar, park və küçələr bu tarixi məkana yeni çalarlar qatır. Ən əsası isə insanlar qonaqpərvərdirlər. İnanıram ki, yaxın gələcəkdə İtaliya-Azərbaycan münasibətlərində bu regionun öz yeri olacaq.

Kazbek KAZKENOV (Azərbaycan-Qazaxıstan Dostluq Assosiasiyasının üzvü, Nur Otan Partiyasının sosial-siyasi problemlərin analiz və proqnozu mərkəzinin rəhbəri, professor):

– Bütün türk dünyasının lideri Heydər Əliyev öz qüdrəti və zəkası ilə Azərbaycanı böyük fəlakətlərdən qurtarmış və ölkəsinə firavanlıq bəxş etmişdir. Mən sevinirəm ki, bu gün burada – onun doğulduğu Naxçıvandayıq. Naxçıvanın təbiəti, təmiz havası, gözəlliyi məni çox təəccübləndirir. Şəhəriniz inkişaf edir: hara baxırsan, mütləq orada bir yenilik görürsən. Rahat yollarınız, təmiz şəhəriniz var. Naxçıvan həm də böyük türk dünyasına açılan qapıdır. Buranın türk dünyası üçün əhəmiyyəti böyükdür. İnsanlar burada öz dəyərlərinə sahib çıxmağı bacarırlar. Biz Xalça Muzeyində olduq. Burada necə gözəl xalçalar toxunduğunun şahidi olduq. Heydər Əliyev Muzeyi, Məminə xatın türbəsi, Duzdağ mağaraları, Nuh Peyğəmbərin türbəsi – bütün bunlar bizim səyahətimiz üçün çox maraqlı oldu.

Annamaria ESPOSİTO (İtaliyanın "Rai-news 24" telekanalının müxbiri):

– Naxçıvanda heç zaman olmamışam. Bakıda olarkən dedilər ki, Naxçıvan həm də böyük siyasətçi Heydər Əliyevin vətənidir. Dağlıq ərazilərin qoynunda yerləşən bu diyarın təmiz və günəşli havası çox xoşuma gəldi. Naxçıvanda olarkən bir çox maraqlı yerlərdə olduq. Tarixi baxımdan bura çox zəngin yerdir, bizə şəhərin 5000 il yaşı olduğu barədə məlumat verdilər. Düşünürəm ki, bu haqda dünya ictimaiyyəti bilməlidir. Dünyanın bir çox ölkələrində olmuşam. Naxçıvandakı fərq ondan ibarətdir ki, bura səs-küydən uzaq, çox sakit və təmiz şəhərdir.

Birgit VETZEL (almaniyalı sərbəst jurnalist):

– Mən Almaniya qəzetlərinə sərbəst jurnalist olaraq yazılar hazırlayıram. İşimlə bağlı dünyanın bir çox ölkələrində olmuşam və ən görməli yerləri gəzmişəm. Müxtəlif ölkələrdə insanların həyat şəraitini müşahidə etmək, tarixi məkanları öyrənmək, elm və təhsil sahəsində yeni çağırışları qələmə almaq mənim ən çox sevdiyim məşğuliyyətlərdəndir. Bəzən elə ölkə olub ki, orada insanlarla ünsiyyət qurmaq, söhbət etmək mənim üçün çox çətin olub. Ancaq Bakıda, eləcə də Naxçıvanda belə bir çətinliklə üzləşmədim. İnsanlar gülərüz, xoşxasiyyət, qonaqpərvərdirlər. Təmsil etdiyim ölkədə ilk dəfə gördüyünüz çox az adamdan "necəsiniz, sizə necə kömək edə bilərəm?" sualını eşidə bilərsiniz. Ancaq burada mən bu sualı tez-tez eşidirəm. Bir qərbli kimi bu, məni çox heyrətləndirir və təsirləndirir. Ordubada gəlişimlə Naxçıvan haqqındakı təəssüratlarım, bir növ, tamamlanmış oldu. Müşahidə etdim ki, "şərqli qonaqpərvərliyi" ifadəsi öz-özünə yaranmayıb. Burada hər kəs bizim üçün nəsə etməyə çalışır, qayğımıza qalır. Bir faktı nəzərinizə çatdırım ki, Tarix-Diyarşünaslıq Muzeyində olarkən bir dəqiqə belə, tək qalmadım. İnsanlar yaxınlaşır, muzeyin bələdçisi kimi buradakı eksponatlar haqqında müfəssəl məlumat verir, kim olduğum, haradan gəldiyim, nə işlə məşğul olduğum haqqında maraqlanırdılar. Ən çox məni təsirləndirən isə onların mənə ünvanladığı "Naxçıvanı bəyəndinizmi?" sualı oldu. Yuxarıda da qeyd etdiyim kimi, dünyanın bir çox ölkələrini gəzmişəm və heç yerdə insanların öz yurdlarının tanıdılmasında, sevdirilməsində bu qədər əmək sərf etdiyinin şahidi olmamışam. Bakıda olarkən eşitdim ki, transmilli layihələrdən olan Bakı-Tbilisi-Qars dəmir yolunun çəkilişi sürətlə davam etdirilir. Bu layihə tamamilə icra olunduqdan sonra blokadada olan Naxçıvanın dəmir yolları da beynəlxalq dəmir yolu şəbəkəsinə qoşulacaq. Onda Naxçıvan öz potensialını bütün dünyaya nümayiş etdirə biləcək. O günlərin şahidi olmaq, Avropanın hər hansı bir şəhərindən qatara bilet alıb Naxçıvana doğru səfərə çıxmaq, müasir, çiçəklənən bir diyarın qazandığı yeni nailiyyətləri görmək istərdim.

Mehmet ŞAHİN (Türkiyə):

– Bu gün Türkiyə-Azərbaycan əməkdaşlığı, sadəcə, dövlətlərimiz arasındakı güclü həmrəyliyə deyil, eyni zamanda xalqlarımızın paylaşdığı köklü tarix və könül birliyinə söykənir. Türkiyə və Azərbaycan xalqları eyni dildə danışır, müştərək bir tarixi paylaşır. Hər iki ölkə qarşısına eyni coğrafiyada sülh, sabitlik və rifahın təmin edilməsi məqsədini qoyub. Bu sağlam zəmin üzərində qurulan, "Bir millət, iki dövlət" prinsipi əsasında möhkəmlənən əlaqələrimiz siyasi və iqtisadi sahələrdə əldə olunan inkişaf prosesi ilə bugünkü mükəmməl səviyyəsinə çatıb. Bu gün Azərbaycan və Türkiyə arasında Naxçıvan ərazi cəhətdən bir körpü rolunu oynayır və təmsil etdiyim ölkə bu qədim oğuz-türk yurdunda gedən proseslərə xüsusi önəm verir. Əminliklə deyə bilərəm ki, bu gün Azərbaycan türk dövlətləri arasında ən inkişaf etmiş ölkələrin sırasında yer alıb. Onun ayrılmaz parçası olan Naxçıvanda gedən inkişaf hamımızı sevindirir. Mən bu gün Ordubaddakı Tarix-Diyarşünaslıq Muzeyində oldum. İlk baxışda özümü Malatya muzeylərində hiss etdim. Çünki muzeydə sərgilənən, torpaq altından çıxarılan qədim sənətkarlıq, xalq yaradıcılığı nümunələri eyni idi. Bu, məni çox heyrətləndirdi və anladım ki, "Bir millət, iki dövlət" ifadəsinin arxasında minillərin ortaq tarixi dəyərləri dayanır. Nə qədər ki bu dəyərlər qorunur, hər iki ölkənin birliyi və qardaşlığı da hər zaman var olacaqdır.

Rza TALEBİ DARYANİ (Almaniya):

– Mən əslən azərbaycanlıyam. Hazırda Almaniya vətəndaşı kimi bu ölkədə yaşayır və elmi fəaliyyətlə məşğul oluram. Azərbaycanda keçirdiyim bu günlər, bəlkə də, həyatımda ən yaddaqalan günlər olacaq. Özümü xarici qonaq saymıram və Naxçıvan haqqında bu torpağın bir sakini kimi muxtar respublikaya gələn nümayəndə heyətlərinin üzvləri ilə tez-tez söhbətlər edirəm. Onlardan eşitdiyim isə yalnız və yalnız xoş sözlər, təəssüratlar olur. Təbii ki, bu da məni bir azərbaycanlı kimi çox sevindirir, qürurlandırır. Onları ən çox heyrətə salan məkanlardan biri də müqəddəs "Qurani-Kərim"də adıçəkilən Əshabi-Kəhf ziyarətgahıdır. Bu məkan öz görkəmi ilə hər kəsi valeh edir, onlarda Yaradana böyük inam hissləri oyadır. Nəhəng qayaları sanki kimsə iki barmağı ilə götürüb üst-üstə qoyub, hansısa bir rəssam sehrli fırçası ilə əzəmətli, əsrarəngiz və möhtəşəm bir mənzərə yaradıb. Buraya xarici ölkələrdən gələnlərin bir çoxu elm adamlarıdır və etiraf edim ki, onlar müqəddəs kitablarda yazılanlara deyil, elmin, təbiətin diktə etdiyi qanunlara daha çox inanırlar. Ancaq burada mən müşahidə etdim ki, hansısa bir sehrli qüvvə böyük bir kütləni cəlb etdi və yaşlı-cavan demədən hamı ən sonuncu pilləyə kimi nəfəs belə dərmədən qalxdı. Hər kəs böyük ruh yüksəkliyi ilə ziyarətdə iştirak etdi. Bu da Əshabi-Kəhfin müqəddəs ziyarətgah, Naxçıvanın müqəddəs bir məkan olduğunu bir daha sübuta yetirir. Biz Əshabi-Kəhfdən sonra Naxçıvan teatrında və Naxçıvan Dövlət Universitetində olduq. Gördük ki, naxçıvanlılar incəsənət və elm ocaqlarına da əsl məbəd kimi baxır, ümumilikdə, mədəniyyətə böyük əhəmiyyət verirlər. Nə deyə bilərəm? Belə gözəlliklərin, bütün çətinliklərə baxmayaraq, yurduna-torpağına bağlı insanların Vətən sevgisinin təntənəsinin qarşısında söz də acizdir. Bircə onu deyə bilərəm ki, sağ ol, Naxçıvan, sağ olun, Naxçıvanın qayğıkeş, üzügülər insanları!

✍ **Səbuhi HÜSEYNOV**

Bizim diplomatlar

Araz-Türk Respublikasının xarici siyasətini müəyyənləşdirən diplomat

"Azərbaycandan ərazicə ayrı düşmüş Naxçıvanın Azərbaycan Xalq Cümhuriyyəti ilə birləşməsi üçün böyük səylər göstərən Araz-Türk Respublikasının xarici işlər naziri Bəhram xan Naxçıvanski təmsil etdiyi dövlətin ərazisinin qorunması uğrunda fəal mübarizə aparmışdır".

Azərbaycan Respublikasının diplomatik xidmətinin 90 illiyi münasibətilə keçirilən konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun çıxışından

Diplomatiya tariximizdə ən qüdrətli simalar arasında Bəhram xan Naxçıvanski xüsusi yer tutur. İndiyə qədər aparılan tədqiqatlarda bu görkəmli şəxsiyyətin, əsasən, hərbçi və daxili idarəçilik sistemində fəaliyyəti daha çox qabardılsa da, 1918-1920-ci illərdə Bəhram xan Naxçıvanski bir müddət diplomatik fəaliyyətlə də məşğul olmuşdur. O dövrdə Naxçıvanda ermənilər tərəfindən törədilən qırğınların qarşısını almaq məqsədilə yaradılmış Araz-Türk Respublikasının nümayəndə heyətinin başçısı kimi Bəhram xan Naxçıvanski nəinki Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin nümayəndələri ilə, hətta Qafqazdakı müttəfiq qoşunlarının komandanı general V.Tomsonla, Tiflisdə Gürcüstan hökumətinin nümayəndələri ilə danışıqlar aparmış, Naxçıvan məsələsinin Paris Sülh Konfransında müzakirəsinin mümkünlüyü haqqında danışıqlarda iştirak etmişdir. Uzun illər Naxçıvanskilərin keçdikləri həyat yolu ilə bağlı tədqiqatlar aparmış tarix üzrə fəlsəfə doktoru Musa Quliyevin "Aman xan Naxçıvanski: tanımalı və tanıtmalı olduğumuz şəxsiyyət" adlı məqalədə yazdığına görə, 1872-ci ildə Naxçıvan şəhərində anadan olmuş Bəhram xan Naxçıvanskinin atası Naxçıvan xanları nəslindən olan Aman xan Naxçıvanski, anası isə Qarabağ xanı Mehdiqulu xanın nəvəsi Fatmabikə (Xanbikə) olmuşdur. Qeyd edək ki, Xanbikə məşhur şairə Xurşidbanu Natəvanın qızı idi.

Diplomatik fəaliyyətinə qədərki dövrdə müxtəlif vəzifələrdə – Naxçıvan Qəza Polis İdarəsində şəhər polis pristavının köməkçisi, Naxçıvan Müsəlman Məktəbinin fəxri nəzarətçisi, Naxçıvan şəhərinin başçısı, fəxri barışdırıcı məhkəmənin münsiflər heyətinin üzvü işləmiş Bəhram xan Naxçıvanski Araz-Türk Cümhuriyyətinin mövcud olduğu dövrdə təkcə könüllü xalq dəstələrinin komandirlərindən biri olmamış, həm də bu cümhuriyyətin xarici siyasətinə rəhbərlik etmişdir. 1919-cu il yanvar ayının 25-dən başlayaraq hökumətin xarici işlər naziri təyin edilən Bəhram xan elə fəaliyyətə başladığı ilk günlərdə İrəvandan Naxçıvana gəlmiş Amerika Komissiyasını qəbul etmişdir. Komissiya ilə aparılan danışıqlar nəticəsində Naxçıvan şəhərində 50 çarpayılıq bir xəstəxananın açılması, 250 nəfərlik uşaq evinin yaradılması, həmçinin bu təşkilat üçün 50 min manat pul və 4 min pud buğdanın ayrılması haqqında razılaşma əldə olunmuşdur. Aparılan danışıqların nəticəsi olaraq, Amerika Komissiyası qısa bir zamanda planları gerçəkləşdirməyə başlamış, Naxçıvanda 200 nəfərlik uşaq evi açılmışdır.

Hələlik Bəhram xanın diplomatik fəaliyyətində bizə məlum olan ən mühüm məqam ondan ibarətdir ki, o, 1919-cu ilin martında Bakıya – Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilə danışıqlar aparmağa gedən Araz-Türk Respublikasının nümayəndə heyətinin rəhbəri olmuşdur. Bu nümayəndə heyətinin tərkibinə Bəhram xan Naxçıvanski ilə yanaşı, görkəmli dramaturq Hüseyn Cavid Rasizadə, yazıçı, jurnalist, tərcüməçi, milli-azadlıq mübarizəsinin cəfakeşlərindən biri Əli Səbri Qasımov və başqaları daxil idi. 2005-ci ildə çapdan çıxmış Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyasının II cildində qeyd olunur ki, B.Naxçıvanski 1919-cu ilin martında Bakıya gələrkən yolüstü Tiflisdə Gürcüstan hökumətinin üzvləri ilə, eləcə də Gəncədə milli istiqlal hərəkatı nümayəndələri ilə görüşərək Naxçıvanın Azərbaycan Xalq Cümhuriyyətinə birləşdirilməsi ilə bağlı məsləhətləşmələr aparmışdır. Türkiyəli tədqiqatçı İbrahim Ethem Atnurun yazdığına görə, Tiflis səfəri zamanı Bəhram xan Naxçıvanda müəyyənləşəcək sərhəd məsələləri ilə əlaqədar ingilis rəsmi dairələri ilə də görüşmüşdür. Tiflisdə olarkən Bəhram xan Naxçıvanski xanlıq iqtidarından əvvəlki hökumət dövründə Araz-Türk Cümhuriyyətinin nümayəndələri kimi Bakıya göndərilmiş Paşa Bayramov və Yusif bəy Qazıyevlə görüşmüş, yeni hökumətin xarici işlər naziri olması haqqında nümayəndələrə məlumat vermişdir.

Tarixçi Aydın Hacıyevin "Qars və Araz-Türk respublikalarının tarixində" kitabında qeyd etdiyinə görə, Bəhram xan Naxçıvanskinin rəhbərlik etdiyi Araz-Türk Respublikasının nümayəndə heyəti Fətəli xan Xoyski və Tomsonla Naxçıvan məsələsinin Paris Sülh Konfransında müzakirəsinin mümkünlüyü haqqında danışıqlarda iştirak etmişdir. Məhz aparılan bu danışıqlardan sonra Azərbaycan hökuməti Araz-Türk Respublikasına polkovnik Kuquşevin başçılığı ilə 10 zabitin göndərilməsi haqqında mühüm qərar qəbul etmiş və Naxçıvana gələn zabitlər burada Naxçıvanın müdafiəsinin daha da möhkəmləndirilməsi işində iştirak etmişlər. Aparılan danışıqlar zamanı Naxçıvan əhalisinin ağır vəziyyətini, regionun düşdüyü ağır situasiyanı Azərbaycan Xalq Cümhuriyyəti hökuməti nümayəndələrinə izah edən Bəhram xan Naxçıvanski bölgəyə təkcə zabitlərin deyil, yerlərdə vəziyyətlə tanış olmaq üçün mülki nümayəndələrin və əhalinin ehtiyaclarının ödənilməsi üçün bir milyon manat pul vəsaitinin göndərilməsinə nail olmuşdur. Məhz göstərilən bu səylərin nəticəsi olaraq, Azərbaycan hökuməti Naxçıvan, Şərur, Sürməli, Vedibasar və Milistan bölgələrinə Teymur bəy Makinski, R.İsmayılov və doktor Qənizadədən ibarət nümayəndə heyəti göndərmək haqqında da qərar vermişdir.

Sonralar bir müddət Naxçıvan şəhərində general-qubernatorun köməkçisi vəzifəsində çalışmış Bəhram xan 1919-cu ilin sonlarında Azərbaycan Xalq Cümhuriyyəti Daxili İşlər Nazirliyinin Lənkəarandakı nümayəndəsi kimi fəaliyyət göstərmişdir. 1919-cu ilin avqustunda general-mayor Həbib bəy Səlimovun rəhbərliyi altında Azərbaycan Xalq Cümhuriyyəti qoşunlarının keçirdiyi Lənkəran əməliyyatı nəticəsində bölgədəki ağqvardiyaçı dəstələrin məğlubiyyətə uğradılmasından sonra Bəhram xan Naxçıvanskinin buraya nümayəndə kimi göndərilməsi onun idarəçilik məharətindən irəli gəlirdi. Qeyd edək ki, bu dövrdə Lənkəranın general-qubernatoru Cavad bəy Məlik-Yeqanov olmuşdur.

1920-ci ildə baş verən hadisələrlə əlaqədar İrana mühacirət edən Bəhram xan Naxçıvanski Təbrizdə yaşamışdır. Tədqiqatçı Musa Quliyevin yazdığına görə, o, Təbrizdə antisovet mühacir dəstənin və "Müstəqil Qafqaz" təşkilatının üzvü olmuşdur.

Bəhram xan Naxçıvanskinin harda və nə zaman vəfat etdiyi ilə bağlı məlumatlar isə təəssüf ki, hələ də məlum deyil.

✍ **Elnur KƏLBİZADƏ**

Hardan hara

Kəngərli rayon Çalxanqala kənd tam orta məktəbinin binası

Tələbələrimiz Almaniyada yay kurslarında iştirak etmək üçün imtahan verdi

Alman Akademik Mübadilə Xidmətinin (DAAD) Bakı Məlumat Mərkəzinin rəhbəri xanım Nikola Ulliş Naxçıvan Dövlət Universitetində olmuşdur. Universitetin rektoru, professor Saleh Məhərrəmov Naxçıvan Dövlət Universitetində dünya təhsil sisteminə inteqrasiya, ali təhsil sahəsində ümumavropa təcrübəsinin öyrənilməsi və tətbiqi istiqamətində görülən işlərdən danışmışdır. Qeyd olunmuşdur ki, Naxçıvan Dövlət Universiteti dünyanın tanınmış 80 ali məktəbi ilə beynəlxalq əməkdaşlıq edir. Ali təhsil müəssisəsi bir çox beynəlxalq layihələrdə, o cümlədən "Tempus" proqramı çərçivəsində həyata keçirilən 5 layihədə uğurla təmsil olunmaqdadır. Tələbə mobilliyinin artırılması nəticəsində universitetin bir neçə tələbəsi Gürcüstanın Acarıstan Muxtar Respublikasının Şota Rustaveli adına Batumi Dövlət Universitetində, Cənubi Koreyanın Kimçonq Universitetində təhsilini davam etdirir. Bundan başqa, "ERASMUS MUNDUS" layihəsi çərçivəsində 2 nəfər İspaniyanın Santyaqo de Kompostela Universitetində, 1 nəfər isə İtaliyanın Tuskua Universitetində doktorantura təhsili alır. Rektor Almaniya ilə də tələbə mübadiləsinin genişləndirilməsinin əhəmiyyətindən danışmışdır.

Xanım Nikola Ulliş təmsil etdiyi qurum haqqında ətraflı məlumat verərək Alman Akademik Mübadilə Xidmətinin Almaniyadakı ali məktəblərin beynəlxalq əməkdaşlıq sahəsində ən böyük maliyyələşdirici qurum olduğunu bildirmişdir.

Sonra tələbə və magistrantların iştirakı ilə yığıncaq keçirilmişdir. Yığıncağı giriş sözü ilə universitetin beynəlxalq əlaqələr üzrə prorektoru, riyaziyyat üzrə fəlsəfə doktoru Anar Kazımov açaraq Almaniyada təhsil imkanları haqqında məlumat vermişdir. Nikola Ulliş Alman Akademik Mübadilə Xidmətinin Bakı Məlumat Mərkəzinin iki ölkə arasında təhsil sahəsində əməkdaşlıq çərçivəsində yaradıldığını qeyd edərək bu qurumun fəaliyyət istiqamətlərindən danışmışdır.

Sonra Almaniyada yay dil kurslarında iştirak etmək üçün universitetin II və III kurs tələbələrinin, I kurs magistrantlarının qatıldığı onlayn imtahan keçirilmişdir. İmtahanın nəticələri 2014-cü ilin mart-aprel aylarında açıqlanacaq.

Mehriban SULTAN

"Arşın mal alan" tamaşasına ictimai baxış olmuşdur

M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında Üzeyir Hacıbəylinin "Arşın mal alan" tamaşasına ictimai baxış olmuşdur. İlk dəfə olaraq Naxçıvan Dövlət Kukla Teatrında marionetka kuklalardan istifadə edilməklə hazırlanan bu tamaşa "Arşın mal alan" operettasının səhnəyə qoyulmasının 100 illiyi ərəfəsində səhnələşdirildiyi üçün maraq doğurur.

Tamaşada Azərbaycan xalq teatrının ünsürlərindən, formalarından da istifadə edilmişdir. Tamaşanın quruluşçu rejissoru Azərbaycan Respublikasının xalq artisti Yasəmən Ramazanova, quruluşçu rəssamı Rəfael Qədimovdur.

Tamaşadakı mahnılar milli musiqi alətlərimiz – tar, kamança və qavalla ifa olunmuşdur. Bir saat 25 dəqiqədən ibarət tamaşanı böyük bəstəkarın əsərləri daha baxımlı etmişdir.

Tamaşada rolları aktyorlar İbad Nəbiyev (Əsgər), Ləman Vəliyeva (Gülçöhrə), İlqar Babayev (Süleyman), Süleyman Süleymanov (Soltan bəy), İlham Babayev (Vəli), Xalq artisti Yasəmən Ramazanova (Telli) və başqaları səsləndirmişlər.

İctimai baxışdan sonra Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Sarvan İbrahimov, Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının əməkdar rəssamı Ülviyyə Həmzəyeva, Xalq artistləri Kamran Quliyev, Yasəmən Ramazanova, rəssam Əli Səfərli, şair Zaur Vedili, yazıçı, filologiya üzrə fəlsəfə doktoru Rafiq Babayev, Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı Əli Rzayev çıxış edərək tamaşa haqqında fikir və rəylərini bildirmişlər.

Əli RZAYEV

Gömrükçülər arasında futzal turnirinə start verilib

Muxtar respublika gömrük orqanları arasında növbəti futzal turnirinə start verilib. İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən yarışda qalib adı uğrunda 6 gömrük orqanının komandası mübarizəyə qatılıb. Dairəvi sistem üzrə keçirilən oyunlarda nizam-intizamı qorumaq Naxçıvan Muxtar Respublikası Futbol Federasiyasının hakimlərinə həvalə olunub.

Turnirin açılış mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Səhət Həbibbəyli gömrükçülər arasında idmanı təbliğ etmək, onların fiziki sağlamlığının qayğısına qalmaq məqsədilə keçirilən yarışların gömrük əməkdaşları arasında qarşılıqlı münasibətlərin inkişafına müsbət təsir göstərdiyini, onlarda qələbəyə inam, mübarizlik hisslərini artırdığını önə çəkib.

Birinci turda bütün komandalar hərəyə iki görüş keçiriblər. Çempionluğa iddialılardan olan "Sədərək" maksimum nəticəylə öz taleyini əlində saxlamağı bacarıb. Amma nəzərə alaq ki, adıçəkilən komandanın qarşıda hələ iki güclü rəqiblə oyunu qalıb. "Komitə", "Şahtaxtı" və "Hava Nəqliyyatında Gömrük İdarəsi" komandalarının xal itkisi isə əslində, çempionluq uğrunda mübarizəni daha da qızışdırıb.

İkinci turun oyunları noyabrın 8-i və 9-da keçiriləcək. Bu tur çərçivəsində baş tutacaq "Sədərək"-"Hava Nəqliyyatında Gömrük İdarəsi" və "Şahtaxtı"-"Sədərək" görüşləri çempionluq yolunda bir çox qaranlıq məqamlara aydınlıq gətirəcək. "Komitə" ilə "Şahtaxtı" isə son oyun günündə – noyabrın 15-də üz-üzə gələcək. Qalib komandalar və turnirdə fərqlənən idmançılar Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin kubok, diplom və qiymətli hədiyyələri ilə mükafatlandırılacaqlar.

Rahil TAHİRLİ
Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat və ictimaiyyətlə əlaqələr üzrə baş inspektoru

Azərbaycan Respublikasının Təhsil Nazirliyi

Naxçıvan Dövlət Universiteti aşağıdakı fakültə və kafedralar üzrə boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir

Fakültə dekanı vəzifəsini tutmaq üçün

1. Memarlıq və mühəndislik

Kafedralar üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün

1. Azərbaycan ədəbiyyatı
2. Rabitə və informasiya texnologiyaları
3. İnformatika
4. Zoologiya
5. Tibbi klinik fənlər
6. Jurnalistika və dünya ədəbiyyatı
7. Memarlıq

Kafedralarda boş olan vəzifələri tutmaq üçün

1. İngilis dili – dosent – 1 yer (0,5 ştat); dosent – 1 yer; müəllim – 2 yer; baş müəllim – 1 yer
2. Ümumi riyaziyyat – professor – 1 yer; baş müəllim – 2 yer
3. İqtisadiyyat – baş müəllim – 1 yer
4. Orkestr alətləri və dirijorluq – baş müəllim – 2 yer
5. Botanika – müəllim – 2 yer; dosent – 1 yer
6. Bələdiyyə və turizm – müəllim – 1 yer
7. Dünya iqtisadiyyatı – müəllim – 1 yer
8. Musiqi təlimi – müəllim – 4 yer
9. Jurnalistika və dünya ədəbiyyatı – müəllim – 2 yer
10. Hüquq fənləri – müəllim – 3 yer
11. Təməl tibb fənləri – müəllim – 2 yer
12. Memarlıq – müəllim – 2 yer
13. Baytarlıq – müəllim – 1 yer
14. Kitabxanaçılıq – dosent – 1 yer; müəllim – 1 yer
15. İnformatika – müəllim – 1 yer
16. Nəqliyyat mühəndisliyi – müəllim – 1 yer (0,5 ştat)
17. Pediatriya – müəllim – 2 yer (0,5 ştat); dosent – 1 yer
18. Rus dili və ədəbiyyatı – müəllim – 1 yer
19. Rabitə və informasiya texnologiyaları – müəllim – 1 yer
20. Kimya – müəllim – 2 yer (0,5 ştat)
21. Şərq dilləri və ədəbiyyatı – müəllim – 1 yer (0,5 ştat)
22. Xalq çalğı alətləri – müəllim – 1 yer (0,5 ştat)
23. Ümumi təbabət və gigiyena – müəllim – 1 yer; baş müəllim – 1 yer
24. Beynəlxalq münasibətlər – müəllim – 1 yer
25.Musiqişünaslıq və metodika – müəllim – 1 yer; baş müəllim – 1 yer
26. Fortepiano – müəllim – 1 yer; baş müəllim – 1 yer
27. Roman-german dilləri – müəllim – 1 yer
28. Bədən tərbiyəsi və idman – müəllim – 1 yer; baş müəllim – 1 yer
29. Riyazi analiz – dosent – 1 yer; baş müəllim – 1 yer
30. Fiziki tərbiyə və idman oyunları – baş müəllim – 1 yer
31. Teatr və mədəniyyətşünaslıq – dosent – 1 yer
32. Təsviri incəsənət – professor – 1 yer (0,5 ştat).

Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində müvafiq qaydada təqdim edilə bilər.

Ünvan: Naxçıvan şəhəri, universitet şəhərciyi, telefon: 545-23-66

Allah rəhmət eləsin

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Etibar Məmmədova, anası **BÜLBÜL XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri Ülviyyə Həmzəyeva və birliyin üzvləri rəssam **QƏDİRULLA BAĞIROVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin professor-müəllim kollektivi universitetin magistratura üzrə dekanı Etibar Məmmədova, anası **BÜLBÜL XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dekanı Akif Mərdanlı, dekan müavini Şəmil Mahmudov Etibar Məmmədova, anası **BÜLBÜL XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Pedaqogika və psixologiya kafedrasının əməkdaşları Salatın Hacıyevaya, anası **İNTİZAR XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat kafedrasının müdiri Ağarza Rüstəmov və kafedranın əməkdaşları Etibar Məmmədova, anası **BÜLBÜL XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi kafedrasının müdiri Ələvsət Quliyev və kafedranın əməkdaşları Etibar Məmmədova, anası **BÜLBÜL XANIMIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin kollektivi Etibar Məmmədova, anası **BÜLBÜL XANIMIN** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı
Baş redaktor: TURAL SƏFƏROV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 3940. Sifariş № 1016